**27.04.2011**
**MƏNBƏ: AzərTAc**
[http://www.azertag.gov.az/index_az.jsp?id=3636&date=2011-04-27](http://www.azertag.gov.az/index_az.jsp?id=3636&date=2011-04-27)

# "Ələt-Masallı avtomobil yolunun 1A hissəsinin tikintisi" layihəsi üzrə işlər ilin ikinci yarısında başa çatdırılacaqdır




Bakı, 27 aprel (AzərTAc).

Beynəlxalq əhəmiyyətli "Ələt-Masallı avtomobil yolunun 1A hissəsinin (km 0 – km 9) tikintisi" layihəsinə əsasən I-B dərəcəli bu avtomobil yolunun üstündə 2 yol ötürücüsü və 1 yeraltı mal-qara keçidi də tikilir.

"Azərinşaatservis" Məhdud Məsuliyyətli Cəmiyyətindən AzərTAc-a bildirmişlər ki, əsas yolun uzunluğu 9 kilometr, köməkçi yolların uzunluğu 7,69 kilometr, torpaq yatağının eni isə 27,5 metrdir. Hazırda yol ötürücülərinin tikintisinin 75 faizdən, mal-qara keçidinin isə 95 faizdən çox hissəsi başa çatdırılmışdır. Dörd hərəkət zolağından ibarət olacaq avtomobil yolunun hər bir hərəkət zolağının eni 3,75 metrdir. 1 milyon 315 min kubmetr həcmində torpaq işləri tam başa çatdırılmışdır. Layihənin icrası üçün 70-ə yaxın texnika və avadanlıq, 100-ə yaxın işçi cəlb edilmiş, nəzərdə tutulan bütün işlərin təqribən 90 faizi başa çatdırılmışdır.

Nəqliyyat Nazirliyinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sifarişi və Dünya Bankının maliyyəsi ilə həyata keçirilən bu layihə üzrə işlərin 2011-ci ilin ikinci hissəsində başa çatdırılması nəzərdə tutulur.